# Azərbaycan-İran münasibətləri transformasiya yolunda



**2023-cü il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktı, diplomatik missiyaya edilən silahlı hücum Azərbaycan-İran münasibətlərində gərgin mərhələnin başlanğıcı oldu.**

Bu hadisə regionda dəyişən güc balansı, İranın qeyri-konstruktiv siyasəti və Azərbaycanın öz təhlükəsizlik maraqlarını qətiyyətlə müdafiə etməsi fonunda baş verdi. Həmin gün səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərovun şəhid olması, daha iki əməkdaşın yaralanması və hücumun diplomatik toxunulmazlığı kobud şəkildə pozması, hadisənin məqsədli şəkildə planlaşdırıldığını göstərirdi.

**(davamı 8-ci səhifədə)**



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev hadisədən dərhal sonra səfirliyin fəaliyyətinin dayandırılması və diplomatların geri çağırılması barədə qərar verdi. Bu addım diplomatik etimadın pozulduğu, səfirlik əməkdaşlarının həyatına təhlükə olduğu bir şəraitdə beynəlxalq hüququn ruhuna uyğun olaraq həyata keçirildi. Hadisədən sonra Azərbaycanın verdiyi reaksiyalar təkcə İran qarşısında deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış ciddi bir siqnal idi: Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyinə biganə olmayacaq və bu tip hücumlar cəzasız qalmayacaq. Terror aktının qarşısının alınmasında qəhrəmanlıq göstərmiş mühafizə əməkdaşı Vasif Tağıyevin göstərdiyi fədakarlıq dövlət tərəfindən yüksək qiymətləndirildi. O, 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Şəhid Orxan Əsgərov və Mahir İmanov isə "Vətən uğrunda" medalı ilə təltif olundu.

Hadisəyə beynəlxalq reaksiyalar da diqqətçəkici idi. Səfirliyimizə edilən hücum bir çox ölkələr və beynəlxalq təşkilatlar tərəfindən qınandı, diplomatik nümayəndəliklərin toxunulmazlığı prinsipinə zidd olduğu vurğulandı. Hadisə həm də regionda yaranmış yeni siyasi reallıqların bir təzahürü idi. Azərbaycanın artan gücü, öz sərhədlərinə və suverenliyinə sahib çıxması, İranın o zamankı Cənubi Qafqaz siyasətindəki ziddiyyətli və bəzən aqressiv davranışları ilə toqquşurdu.

İranın ovaxtkı Prezidenti İbrahim Rəisinin 2023-cü ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyevə etdiyi telefon zəngi və verdiyi başsağlığı iki ölkə arasında yaranmış gərginliyi yumşaltmaq üçün atılmış mühüm addım idi. Bu hadisə fonunda İran tərəfinin təqdim etdiyi həmrəylik mesajları ilk baxışdan təmkinli və məsuliyyətli davranış nümunəsi kimi göründü. Rəisi hadisənin hərtərəfli araşdırılacağını, bu təxribatın ikitərəfli münasibətləri zədələməsinə imkan verilməyəcəyini bildirməklə, həm daxili, həm də beynəlxalq auditoriyaya bir sabitlik mesajı verməyə çalışmışdı.

Qeyd edək ki, 21 may səhər saatlarında Azərbaycanın İrandakı səfirliyinə terror hücumu etmiş İslam Respublikası vətəndaşı Yasin Hüseynzadə edam olunub. Bu edam qərarı həm İranın hüquq sistemində cinayətə verilən sərt cavab, həm də Azərbaycanın uzun müddətdir tələb etdiyi ədalətin bərpası kimi qiymətləndirilə bilər. Rəsmi Bakı hadisənin ilk günündən etibarən bu aktın terror xarakteri daşıdığını, beynəlxalq hüquqa zidd olduğunu və cinayətkarın cəzasız qalmasının mümkün olmadığını qəti şəkildə bildirmişdi. Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətində cinayət işi açılması və beynəlxalq müstəvidə aparılan diplomatik təzyiqlər bu istiqamətdə görülən əsaslı addımlar idi. İranın terrorçuya qarşı ölüm hökmü çıxarması və bunu yerinə yetirməsi regionda gərginləşmiş münasibətlərin yumşaldılması cəhdi kimi dəyərləndirilə bilər.



Son aylarda Azərbaycan ilə İran arasında müşahidə olunan diplomatik istiləşmə təkcə regionda dəyişən geosiyasi reallıqların nəticəsi deyil, eyni zamanda iki ölkənin ortaq maraqlara söykənən münasibətləri yenidən qurmaq istəklərinin təzahürüdür. Uzun illərdir müəyyən inamsızlıq mühitində davam edən Bakı-Tehran əlaqələri indi daha praqmatik və açıq bir mərhələyə qədəm qoyur. Bu kontekstdə İranın yeni seçilmiş prezidenti Məsud Pezeşkianın Bakıya səfəri xüsusi simvolik və strateji məna daşıyır. Azərbaycan göstərdi ki, onun diplomatik nümayəndəliklərinə edilən istənilən hücum cavabsız qalmayacaq və dövlət, həm daxili hüquqi mexanizmlərlə, həm də beynəlxalq təsir vasitələri ilə bu tip cinayətləri sonadək izləyəcək.



Rəsmi Bakı və Tehran arasında münasibətlərdə əldə olunan irəliləyişlər əlaqələrin artıq yeni bir mərhələyə qədəm qoyduğunu göstərir. Belə ki, şübhələrin yerini əməkdaşlıq, hörmət və ortaq gələcək üçün siyasi iradə alıb. Əlbəttə, bu yeni mərhələnin davamlı olması üçün yalnız rəsmi səfərlər və bəyanatlar kifayət deyil. Başqa sözlə desək, enerji, ticarət, təhlükəsizlik, nəqliyyat və mədəniyyət sahələrində konkret addımlar, institusional mexanizmlər, qarşılıqlı zəmanətlərin təmin olunması zəruridir. Yeni mərhələdə isə əsas məsələ birgə iradəni reallığa çevirməkdir.

Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycanın İranla münasibətlərində həmişə xoşniyyətli mövqe sərgiləməsi regionda sabitlik və əməkdaşlıq üçün fundamental şərtlərdən biri olub. Tarixi, mədəni və dini bağlılıqlar üzərində qurulmuş bu əlaqələrdə zaman-zaman gərginliklərin yaşanması isə əsasən üçüncü tərəflərin, xüsusilə də Ermənistan və onu dəstəkləyən dairələrin məqsədli təxribatları ilə əlaqəli idi. Rəsmi Bakı-Tehran münasibətlərində yaranmış böhranlar əksər hallarda bilavasitə Ermənistanın regionda manipulyasiya siyasətindən və destruktiv informasiyalar yaymaq cəhdlərindən qaynaqlanıb. Hayastan həm coğrafi, həm də siyasi təcridini kompensasiya etmək üçün İrəvan daim regional güclər arasında süni qarşıdurmalar yaratmaq yolu ilə öz varlığını gündəmdə saxlamağa çalışırdı. Lakin Azərbaycanın yürütdüyü ardıcıl, balanslı və milli maraqlara söykənən xarici siyasət nəticəsində bu cəhdlər boşa çıxdı.

Rəsmi Bakı hər zaman qarşılıqlı hörmət, suverenliyə sayğı və qeyri-müdaxilə prinsiplərinə əsaslanan münasibətlərin tərəfdarı olub. Məhz bu prinsipial mövqe sayəsində münasibətlərdə yaranmış inamsızlıq və anlaşılmazlıqlar siyasi dialoqla, açıq kommunikasiya ilə aradan qaldırılıb. Azərbaycanın nümayiş etdirdiyi bu siyasi iradə və təmkin İranla münasibətlərin pozulmasına yönəlmiş bütün maraqlı dairələrin planlarını alt-üst edib.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**